AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№55 (1325), 12 - 14 sentyabr 2017-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*

## *Çin Xalq Respublikasının Taypey şəhərində keçirilən Tələbələrin XXIX Ümumdünya Yay Universiadasında Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün yüksək nəticələrə görə mükafatların müəyyən edilməsi haqqında*

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Çin Xalq Respublikasının Taypey şəhərində keçirilən Tələbələrin XXIX Ümumdünya Yay Universiadasında yüksək nəticələr göstərmiş Azərbaycan Respublikasının idmançıları və onların məşqçiləri üçün mükafatların məbləği aşağıdakı qaydada müəyyən edilsin:

1.1. birinci yeri tutan hər bir idmançıya 50 min manat, onun məşqçisinə 25 min manat;

1.2. ikinci yeri tutan hər bir idmançıya 30 min manat, onun məşqçisinə 15 min manat;

1.3. üçüncü yeri tutan hər bir idmançıya 20 min manat, onun məşqçisinə 10 min manat;

1.4. komandanın baş məşqçisinə idman növü üzrə ən yüksək nailiyyət göstərmiş idmançıya görə şəxsi məşqçinin aldığı məbləğ qədər (bir dəfə).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 8 sentyabr 2017-ci il.*

## *Beynəlxalq Paralimpiya Komitəsinə yeni prezident seçilib*

Sentyabrın 8-də Beynəlxalq Paralimpiya Komitəsinin (BPK) Baş Assambleyasında qurumun rəhbər orqanlarına seçkilər keçirilib. Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Abu-Dabidə keçirilən Baş Assambleyasında qrumun yeni prezidentinin adına aydınlıq gəlib.

Braziliya Paralimpiya Komitəsinin prezidenti Endrü Parsons seçkilərdə qalib gələrək Beynəlxalq Paralimpiya Komitəsinin yeni prezidenti seçilib.



## Prezident İlham Əliyev "Təhsil" Respublika İdman Mərkəzinin Zuğulba tədris idman bazasının açılışında iştirak edib

Sentyabrın 8-də Bakının Xəzər rayonunun Buzovna qəsəbəsində "Təhsil" Respublika İdman Mərkəzinin Zuğulba tədris idman bazasının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Dövlətimizin başçısı Zuğulba tədris idman bazasının rəmzi açılışını bildirən lenti kəsdi.

Təhsil naziri Mikayıl Cabbarov Prezident İlham Əliyevə yeni tədris müəssisəsi barədə məlumat verdi.

Bildirildi ki, burada inşaat işlərinə 2015-ci ildə başlanılıb. Kompleksin tikintisi yüksək keyfiyyətlə və müasir səviyyədə aparılıb. İdman bazasının ümumi sahəsi 1 hektara yaxındır. Baza yataqxana və idman sağlamlıq korpusları, amfiteatr, həmçinin mini futbol və basketbol meydançalarından ibarətdir.

Dövlətimizin başçısı müəssisənin idman sağlamlıq korpusunda yaradılan şəraitlə tanış oldu.

Son illərdə Azərbaycanda yeni məktəb binalarının inşası, idman komplekslərinin tikintisi, mövcudlarının isə müasir səviyyəyə çatdırılması istiqamətində böyük işlər görülüb. Bunun nəticəsidir ki, ölkədə yeni məktəb binalarının, tədris idman komplekslərinin sayı sürətlə artıb. Dövlətimizin başçısının rəhbərliyi ilə ölkəmizdə son illərdə bu istiqamətdə icra edilən layihələrin əsas məqsədi gənc nəslin daha savadlı və bilikli olması ilə yanaşı, həm də sağlam böyüməsidir. Bu cür komplekslər yeniyetmə və gənclərə idmanın müxtəlif növləri ilə məşğul olmağa hərtərəfli şərait yaradır.

Yeni istifadəyə verilən bu bazada əsasən yığma komandaların təlim məşq toplantılarının, idmanın müxtəlif növləri üzrə respublika və beynəlxalq səviyyəli yarışların keçirilməsi, aktual mövzularda seminarların təşkil edilməsi, idmanda fərqlənən məktəblilər üçün yay düşərgələrinin yaradılması, məktəblilərin asudə vaxtlarının səmərəli təşkili nəzərdə tutulur.

Prezident İlham Əliyev gələcəyimiz olan gənclərə həmişə böyük diqqət və qayğı ilə yanaşıb, onların təhsil, sosial məsələlərinin həlli, asudə vaxtlarının səmərəli təşkili, həmçinin idmanla məşğul olmaları üçün çox mühüm işlər görüb. Belə komplekslərin istifadəyə verilməsi də bu istiqamətdə həyata keçirilən layihələrin tərkib hissəsidir. Bu baza gənclərin hərtərəfli inkişafı, onların fiziki cəhətdən sağlam olması kimi məsələlərdə vacib rol oynayır. Tədris idman bazası idmançılar üçün də geniş imkanlar açır.

Bu cür komplekslər Azərbaycanda idmanın kütləviliyinin təmin olunmasında, gənc nəsildə idmana olan marağın artırılmasında böyük əhəmiyyətə malikdir. Ölkədə digər sahələrdə olduğu kimi, təhsil və idman sferalarında da aparılan əsaslı islahatlar çərçivəsində belə komplekslərin istifadəyə verilməsi sübut edir ki, ölkəmizdə insan kapitalının inkişaf etdirilməsinə dövlət tərəfindən xüsusi diqqət yetirilir.

Zuğulba tədris idman bazasında yaradılan şəraitlə tanış olan dövlətimizin başçısı kollektivə uğurlar arzuladı.

## Yeniyetmə güləşçilərimiz dünya çempionatında 10 medal qazanıblar

Sentyabrın 4-10-da Yunanıstanın paytaxtı Afinada yeniyetmə güləşçilərin dünya çempionatı keçirilib. Güləşçilərimiz yarışları 10 medalla başa vurublar.




İlk iki yarış günündə mübarizə aparan yunan-Roma güləşçilərimiz 1 qızıl, 2 gümüş medal əldə ediblər. Qurban Qurbanov (42 kq), dünya çempionatının qızıl, Zaur Əliyev (50 kq) və Nihad Məmmədli (46 kq) gümüş medalını qazanıblar.

Qadın güləşçilərin mübarizəsində 2 idmançımız fərqlənib. 38 kq-da mübarizə aparan Şahanə Nəzərova dünya çempionu adına layiq görülüb. Ayşən Yusifova (40 kq) isə yarışları 3-cü yerdə başa vurub.

Yarışların son günündə mübarizə aparan yeniyetmə sərbəst güləşçilərimiz dünya çempionatının 1 qızıl, 3 gümüş və 1 bürünc medalına sahib olublar. 42 kq çəkidə yarışan aparan Əlihəsən Əmirli qızıl medala yiyələnib. Mahir Məmmədzadə (50 kq), Turan Bayramov (58 kq) və Davud İbahimov (69 kq) isə gümüş medala layiq görülüblər. Digər sərbəst güləşçimiz Hacımurad Hacıyev (63 kq) isə 3-cü olub. Beləliklə, sərbəst güləşçilərimiz çempionatı 5 (1 qızıl, 3 gümüş və 1 bürünc) medalla tamamlayan sərbəst güləşçilərimiz komanda hesabında 61 xalla 3-cü nəticə göstəriblər. Rusiya 73 xalla birinci, ABŞ komandası isə 66 xalla ikinci yeri tutub.

Görüşlərin idarə edilməsində ölkəmizi beynəlxalq dərəcəli hakim Sədi Quliyev təmsil edib.

AZERBAIJAN
1992 25 2017

## Milli Olimpiya Komitəsi

## 25 İLLİK FƏALİYYƏT - ƏSRƏ BƏRABƏR NAİLİYYƏT

Səh. 2

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

Səh. 3

## Bünövrəsi möhkəm olan gənclik millətin etibarlı gələcəyidir

## *Olimpizm*

### BOK yoxlamanı davam etdirəcək

Beynəlxalq Olimpiya Komitəsi (BOK) Olimpiada-2016-nın ev sahibinin seçilməsi ilə bağlı araşdırma işini davam etdirəcək. Bu barədə BOK-un prezidenti Tomas Bax deyib.

Rio-de-Janeyro BOK-un İcraiyyə Komitəsinin 2009-cu ilin oktyabrında keçirilən sessiyasında XXXI yay Olimpiya Oyunlarının paytaxı seçilib. Qeyd edək ki, Rio-de-Janeyrodan başqa, namizədlik mübarizəsində Madrid, Çikaqo və Tokio şəhərləri də iştirak edirdilər.

"Biz hadisələrin gedişini yaxından izləyirik. Məhkəmə prosesi hələ başlamayıb. İstinaq işləri gedir. Əvvəlcədən heç nə demək istəmirəm. Hazırda Olimpiada-2024 və Olimpiada-2028-in ev sahiblərinin müəyyən edilməsi ilə məşğuluq", - deyə Tomas Bax bildirib.

Məlumat üçün bildirək kki, 2024 və 2028-ci illərdə keçiriləcək Olimpiya Oyunlarının ev sahiblərinin eyni vaxtda seçilməsi prosesi BOK-un sentyabrın 13-də Perunun Lima şəhərində keçiriləcək 131-ci sessiyasında reallaşacaq.

### Faciə qurbanlarının xatirəsinə abidə qoyulub

Almaniyanın Münhen şəhərində Olimpiada-1072-də terror qurbanı olan İsrail idmançılarının xatirəsinə abidə ucaldılıb.

Abidənin açılış mərasimində Beynəlxalq Olimpiya Komitəsinin prezidenti (BOK) Tomas Bax, İsrail prezidenti Reyven Rivlin, Almaniya prezidenti Valter Ştaynmayer, Bavariyanın baş naziri Horst Zeehofer və Münhün şəhərinin meri Diter Rayter iştirak ediblər.

Məlumat üçün bildirək ki, terror hadisəsi 1972-ci il noyabrın 5-6-da baş verib. "Qara sentyabr" adlı Fələstin terror qruplaşmasının 8 üzvü İsrail yığmasının soyunub geyinmə otağına hücum edərək bu faciəni törədiblər. 2 idmançını yerində öldürən terrorçular 9 nəfəri girov götürüblər. Tələbləri yerinə yetirilməyən fələstinli terrorçular həmin 9 nəfəri də amansızcasına qətlə yetiriblər.

### Sessiyada razılaşma əldə olunacaq

Beynəlxalq Olimpiya Komitəsinin (BOK) İcraiyyə Komitəsi 131-ci sessiyadan əvvəl özünün iclasını keçirəcək.

Qeyd edək ki, Perunun Lima şəhərində keçiriləcək BOK-un 131-ci sessiyasında Olimpiada-2024 və Olimpiada-2028 oyunlarına ev sahibliyi edəcək şəhərlərin adlarına aydınlıq gələcək. BOK-un ali rəhbər orqanı olan sessiyada Los-Anceles və Paris şəhərləri arasında olimpiadaya ev sahibliyi ilə bağlı razılaşma əldə olunacaq. Razılaşmaya əsasən, Paris Olimpiya Oyunlarını 7, Los-Anceles isə 11 ildən sonra qəbul edəcək.

# Milli Olimpiya Komitəsi

1992 25 2017

(əvvəli ötən saylarımızda)

***Azərbaycan Milli Olimpiya Komitəsinin bu il 25 yaşı tamam olur. Yarandığı gündən etibarən beynəlxalq Olimpiya Hərəkatında özünəməxsus iz qoymağı bacaran Milli Olimpiya Komitəsi mürəkkəb və şərəfli bir yol keçib. Ötən müddət ərzində ölkənin idman və Olimpiya Hərəkatı özünün yüksək inkişaf yoluna qədəm qoyub, idman səlnaməsinə qızıl hərflərlə yazılan nailiyyətlər əldə edilib. İdman və Olimpiya Hərəkatına dövlət səviyyəsində göstərilən diqqət və qayğının nəticəsidir ki, Azərbaycan dünyada artıq idman ölkəsi kimi tanınır və yüksək səviyyəli beynəlxalq yarışlara uğurla ev sahibliyi edir.***

***Milli Olimpiya Komitəsinin rəsmi mətbuat orqanı olan "Olimpiya dünyası" qəzeti fəaliyyətə başladığı gündən Azərbaycanda idman və Olimpiya Hərəkatının təbliğinə geniş yer ayırır. Qəzet öz səhifələrində idmançılarımızın ölkə və beynəlxalq səviyyəli yarışlarda əldə etdikləri nailiyyətlər, qazanılan uğurlar barədə oxucuları müfəssəl məlumatlandırır. "Olimpiya dünyası" Azərbaycan Milli Olimpiya Komitəsinin yaranmasının 25 illiyi münasibətilə silsilə yazıları sizin diqqətinizə çatdırır.***

***İdman Azərbaycanda artıq böyük ictimai amilə çevrilmişdir. İdman hər bir ölkənin potensialını, gücünü, səviyyəsini göstərir. Təsadüfi deyil ki, inkişaf etmiş ölkələrdə idmana böyük diqqət və qayğı göstərilir. Bu da təbiidir. Çünki inkişaf etmiş ölkələrdə iqtisadiyyat güclüdür. Maddi imkanlar var. İdmana, onun inkişafına vəsait ayrılması daha asandır.***

***İlham ƏLİYEV***

# 25 İLLİK FƏALİYYƏT - ƏSRƏ BƏRABƏR NAİLİYYƏT



## Azərbaycan I Avropa Oyunları ilə tarix yazdı

Bu gün fərəh hissi ilə demək olar ki, Azərbaycan idman ölkəsi kimi beynəlxalq aləmdə böyük nüfuza malikdir. Ölkəmizdə idmana və Olimpiya Hərəkatına dövlət səviyyəsində göstərilən diqqət və qayğı sayəsində bu sahələr inkişaf edir. Paytaxtımız dünya idman yarışlarının mərkəzinə çevrilib, təmsilçilərimiz ən mötəbər yarışlarda möhtəşəm uğurlar qazanırlar. Respublikamızda idmanın və Olimpiya Hərəkatının inkişafını Azərbaycana müxtəlif vaxtlarda işgüzar səfərlər edən beynəlxalq idman təşkilatlarının rəhbərləri və nümayəndələri də yüksək qiymətləndiriblər. İdmanın yüksək inkişafı üçün Azərbaycan beynəlxalq qurumlarla əlaqələrin möhkəmləndirilməsi istiqamətində fəaliyyətini davam etdirir. İdmançılarımızın Olimpiya Oyunlarındakı nailiyyətləri, mötəbər idman yarışlarının keçirilməsində toplanmış təcrübə və beynəlxalq əlaqələrin yüksək səviyyədə qurulması Milli Olimpiya Komitəsini qitə Olimpiya qurumlarının ön sıralarına çıxarmaqla nüfuzlu təşkilata çevirib. Tarixdə ilk dəfə keçirilən Avropa Oyunlarına ev sahibliyi etmək hüququ 2012-ci il dekabrın 8-də Avropa Olimpiya Komitəsi (AOK) Baş Assambleyasının Romada təşkil edilən iclasında ölkəmizə verilib. Bu böyük tarixi hadisə Azərbaycan dövlətinin idmanının qələbəsi idi.



Beynəlxalq Olimpiya Komitəsi və Avropa Olimpiya Komitəsinin himayəsi və dəstəyi ilə keçirilən tədbirlərdən biri də qitə oyunlarıdır. Avropada qitə oyunlarının keçirilməsi ideyası ilk dəfə 1981-ci ildə Beynəlxalq Olimpiya Komitəsinin (BOK) Baden-Badendə təşkil edilən konqresində irəli sürülüb. Həmin konqresdən cəmi üç il sonra, 1985-ci ildə Avropanın cırtdan ölkələrinin ilk Oyunları həyata vəsiqə alıb.

Avropa Olimpiya Komitəsinin təşəbbüsü ilə təşkil edilən ilk oyunlarda yalnız San-Marino və Lüksemburq ölkələri iştirak edib. Avropanın cırtdan ölkələrinin Oyunları beynəlxalq idman federasiyalarının (BİF) və Olimpiya Xartiyasının norma və qaydalarına əsasən aparılır və yarışların aparılmasına Avropa Olimpiya Komitəsi (AOK) nəzarət edir. Hazırda dünyada müxtəlif səviyyəli çoxsaylı beynəlxalq idman oyunları keçirilir. Panamerika Oyunları, Afrika Oyunları və Asiya Oyunları qitə yarışlarına daxildir. Bundan başqa regionlar üzrə Balkan, Bolivar, Mərkəzi Amerika, Panərəbistan, Sakit Okean, Aralıq dənizi, Okeaniya, Uzaq Şərq, Hind okeanı, Cənubi-Şərqi Asiya, İran körfəzi, Ərəb ölkələrinin də Oyunları keçirilir. Bununla belə, Avropa qitəsində ölkələri əhatə edən irimiqyaslı yarışlar keçirilmirdi. AOK belə yarışların keçirilməsi təşəbbüsü ilə qıxış etdi və ilk Avropa Oyunlarının ev sahibliyi Azərbaycana həvalə edildi.

Tarixdə ilk dəfə keçirilən Avropa Oyunlarına ev sahibliyinin Azərbaycana verilməsinin səbəbi ölkəmizin güclü idman potensialına və maddi-texniki bazaya malik olmasının, idmançılarımızın Olimpiya oyunlarında, dünya və Avropa çempionatlarında əldə etdikləri misilsiz qələbələrin və respublikamızın mötəbər idman yarışlarının mərkəzinə çevrilməsi idi. Bu, ölkəmizdə sabitliyə, idmanda, mədəniyyət və digər sahələrdə qazanılan nailiyyətlərə verilən yüksək qiymət idi. Ölkəmizin Avropa tarixində ilk dəfə keçirilən yarışlara ev sahibliyi etməsi və bu yarışları uğurla təşkili Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 1997-ci ildə Milli Olimpiya Komitəsinin prezidenti seçilməsindən sonra həyata keçirdiyi düşünülmüş və uzaqgörən siyasətin nəticəsidir.

İlk Avropa Oyunlarına təşkili üçün Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 17 yanvar 2013-cü il tarixli Sərəncamı ilə I Avropa Oyunlarının Təşkilat Komitəsi yaradıldı və ölkənin birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva Təşkilat Komitəsinin sədri təyin edildi. Mehriban Əliyeva I Avropa Oyunlarının yüksək səviyyədə təşkili və keçirilməsi üçün böyük səy göstərdi. Mehriban Əliyevanın rəhbərliyi altında I Avropa Oyunlarının təbliği istiqamətində Avropanın Fransa, Yunanıstan, Almaniya, Türkiyə, İsveçrə, Rumıniya, Macarıstan, İtaliya, Rusiya, Belçika və Böyük Britaniya kimi ölkələrində yüksək səviyyədə təqdimat mərasimləri keçirildi. 2015-ci ildə Avropa Oyunları Əlaqələndirmə Komitəsinin Baklda keçirilən ikinci toplantısında Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən işləri yüksək qiymətləndirərək, ona minnətdarlığını bildirdi.

İdman mütəxəssisləri, analitiklərin də dediyi kimi I Avropa Oyunları gözlənildiyindən də yüksək səviyyədə keçdi və uğurlu oldu. Bunu Bakı Olimpiya Stadionunda keçirilən bağlanış mərasimində çıxış edən Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki də qeyd etdi: "Bir çox ev sahibi olan şəhərlər bu cür tədbirlərə hazırlıq üçün beşyeddi il sərf edir. Bakı isə cəmi otuz aylıq qısa zaman kəsiyində bu cür möhtəşəm qitə miqyaslı Oyunlara yüksək səviyyədə ev sahibliyi etməklə Avropa Olimpiya hərəkatını şərəfləndirdi".

Yarışlar iyun ayının 12-dən 28-dək davam etdi. Həmin günlərdə Avropa və dünya idmansevərlərinin diqqəti Bakıya yönəldi. Azərbaycan ilk Avropa Oyunlarını təşkil edən ölkə kimi tarixə düşdü.

Bakı-2015 Avropa Oyunlarının proqramında 30 idman növü nümayiş etdirilirdi. Bunlardan 24-ü Olimpiya, 6-sı isə qeyri-Olimpiya idman növü idi. İdmançılar yarışlarda 25 dəst medal uğrunda mübarizə aparırdılar. I Avropa Oyunlarının məşəlini yarışların açılış və bağlanış mərasimlərinin keçirildiyi Bakı Olimpiya stadionuna cüdo üzrə 2 qat Paralimpiya çempionu İlham Zəkiyev gətirib. Azərbaycan komandasının bayrağını isə dünya çempionatının gümüş medalçısı, Avropa çempionu Elmar Qasımov daşıyıb.

Avropanın 50 ölkəsindən 6 mindən çox idmançının iştirakı ilə keçirilən I Avropa Oyunları, həm də komandamızın uğurlu çıxışı ilə yadda qaldı. Ölkə yığması qitənin güclü idman dövlətlərini geridə qoyaraq 56 medalla (21 qızıl, 15 gümüş, 20 bürünc) ümumi komanda hesabında yalnız Rusiyadan geri qaldı. Avropa Oyunlarına yüksək səviyyədə ev sahibliyi və komandamızın qazandığı uğurlar Azərbaycanın yüksək potensiala malik idman ölkəsi olduğunu bir daha nümayiş etdirdi.

Azərbaycanın ev sahibliyi I Avropa Oyunlarında qitənin Almaniya, Böyük Britaniya, İsveçrə, İtaliya kimi ölkələrini geridə qoyması çox parlaq qələbə idi. Fərəhlisi odur ki, Azərbaycan atletləri bu medalları müxtəlif idman növlərində qazandılar. Proqramda nümayiş etdirilən 20 idman növündən 12-dən çoxunda nəticələr əldə olundu. Bu, Azərbaycanda idman və Olimpiya Hərəkatının hərtərəfli, yüksələn xəttlə inkişaf etdiyinin göstəricisidir. Əldə olunan uğurlar onu deməyə əsas verir ki, idmançılarımız bütün idman növlərində rəqiblərinə güclü müqavimət göstərmək imkanına malikdirlər. Ənənəvi idman növləri olan güləş, boks, taekvondo, karatedə yüksək uğurlar qazanıldı. Triatlon, gimnastika, qılıncoynatma idman növlərində qazandığımız medallar ölkəmizin idman qüdrətinin artdığını bir daha nümayiş etdirdi.

Avropa Oyunlarının açılış və bağlanış mərasimlərinin ideya və təşkili baxımından möhtəşəmliyi azərbaycançılıq ideologiyasının Avropanın dili ilə dünyaya çatdırılması idi. Növbəti Avropa Oyunlarında məşəlin Bakıda yandırılacağı, eləcə də Azərbaycan komandasının paradın önündə gedəcəyi amili qürurvericidir.

Azərbaycan Respublikasının Prezidenti I Avropa Oyunlarında qalib gəlmiş idmançıları, onların məşqçiləri və idman ictimaiyyətinin nümayəndələrini qəbulu zamanı Azərbaycanın güclü, inkişaf etməkdə olan bir ölkəyə çevrildiyini bildirdi. Ölkə rəhbəri müstəqil ölkəmizin zirvədə olduğunu vurğuladı: "Təbii ki, biz bu Oyunları yüksək səviyyədə keçirməli idik və keçirdik. Bu, bir daha ölkəmizin potensialını və gücünü göstərdi. Biz bu potensialı, əlbəttə ki, bilirdik. Bu potensialı biz yaratmışıq. Cəmi 24 il ərzində Azərbaycan elə zirvələrə qalxıb ki, bəzi ölkələrə bu səviyyəyə qalxmaq üçün bəlkə yüzilliklər lazımdır. Bu Oyunlar sadəcə olaraq, bizə imkan verdi ki, bu potensialı dünyaya, Avropaya, eləcə də öz ictimaiyyətimizə nümayiş etdirək.

Azərbaycan bu gün zirvədədir. Azərbaycan bu gün müstəqil, inkişafda olan güclü dövlət kimi uğurla irəli gedir. Bizim siyasi, iqtisadi sahələrdə, diplomatik arenalarda, idman yarışlarında böyük qələbələrimiz var. Biz haqlı olaraq bununla fəxr edirik. Fəxr edirik ki, biz Azərbaycan vətəndaşıyıq. Biz fəxr edirik ki, cəmi 24 il ərzində Azərbaycan xalqının istedadı, zəhməti hesabına, düşünülmüş siyasət hesabına güclü dövlət qurmuşuq".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu dəfə də ölkə idmanında əməyi olan idmançıları və idman mütəxəssislərini unutmadı. Ölkə rəhbərinin Sərəncamı ilə I Avropa Oyunlarında əldə edilən yüksək nailiyyətlərə və Azərbaycan idmanının inkişafında xidmətlərinə görə onları "Şöhrət" ordeni, 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Tərəqqi" medalı ilə təltif etdi.

## Rio-2016 Olimpiadası rekordlarla yadda qaldı

Azərbaycanda idman və Olimpiya Hərəkatının hərtərəfli, yüksələn xətlə inkişafı ötən il Braziliyanın Rio-de Janeyro şəhərində keçirilən XXXI Yay Olimpiya Oyunlarında bir daha özünü büruzə verdi. Rio Olimpiadasında 17 idman növü üzrə 56 idmançı ilə təmsil olunan Azərbaycan Olimpiya yığması 18 medal (1 qızıl, 7 gümüş və 10 bürünc) qazanmaqla medalçılar siyahısında 39-cu sırada qərarlaşdı. Bu göstərici ilə Gürcüstandan geri qalan ölkəmiz Belarus, Türkiyə və Ermənistanı qabaqladı. Medal sayında isə Azərbaycan Yeni Zelandiya ilə birgə 14-15-ci yerləri bölüşdürdü. Azərbaycan yığma komandası XXXI Yay Olimpiya Oyunlarında əvvəlki olimpiadalarla müqayisədə daha geniş tərkibdə - idmanın 18 növü üzrə 56 idmançı (57 lisenziya) təmsil olundu. Bu, London-2012 Yay Olimpiya Oyunları ilə müqayisədə 4 idman növü çoxdur. Ölkəmiz triatlon, kamandan oxatma, velosiped və kanoe-slalom idman növlərində ilk dəfə təmsil olundu. Olimpiadada ölkəmizi təmsil edən 56 idmançıdan 36-sı ilk dəfə idi ki, Olimpiya Oyunlarında iştirak edirdi. Rio-de-Janeyroda Azərbaycan güləş, gimnastika və boks yarışlarında olmaqla 3 hakimlə də təmsil olundu. Komandamıza yeganə qızıl medalı taekvondoçu Radik İsayev qazandırdı. Sərbəst güləşçilər Toğrul Əsgərov, Xetaq Qazyumov, boksçu Lorenzo Sotomayor, cüdoçular Rütəm Orucov və Elmar Qasımov, qadın güləşçimiz Mariya Stadnik və kanoeçi Aleksandr Demyanenko yalnız final görüşlərində uduzaraq gümüş medala sahib oldular. Taekvondoçular Milad Beiqi Harçeqani və Patimat Abakarova, boksçu Kamran Şahsuvarlı, güləşçilər Rəsul Çunayev, Sabah Şəriəti, Nataliya Sinişin, Hacı Əliyev, Cəbrayıl Həsənov və Şərif Şərifov, avarçəkən İnna Osipenko-Radomskaya isə bürünc medalla kifayətləndilər. Ümumilikdə, Rio-2016 Olimpiadasında olimpiyaçılarımız həm qazandıqları medal sayına görə, həm də taekvondo, boks və avarçəkmə idman növlərində medallar qazanmaqla Azərbaycan idmanı tarixinə yeni səhifə yazdılar.

Azərbaycan müstəqillik illərində 6 yay Olimpiya Oyunlarında iştirak edib. Bu olimpiadalarda ümumilikdə 44 medal qazanılıb. Qazanılan medallar 7 idman növündə əldə edilib. Olimpiyaçılarımız ən çox medalları güləş idman növündə qazanıblar. Azərbaycan pəhləvanları olimpiadadan-olimpiadaya medalların sayını artırırlar. Bunu statistik göstəricilər də sübut edir. Belə ki,1996-cı ildə Atlantada keçirilən Yay Olimpiya Oyunlarında güləşçilərimiz 1 gümüş, 2000-ci il Sidneydə keçirilən Olimpiadada 1 qızıl, 2004-cü ildə Afinada keçirilən Olimpiadada 1 qızıl, 2008-ci ildə Pekində keçirilən Olimpiadada 2 gümüş, 2 bürünc, ümumilikdə 4 medal qazanıblar. 2012-ci ildə Londonda keçirilən olimpiadada 2 qızıl, 2 gümüş, 3 bürünc olmaqla 7 medal qazanan güləşçilərimiz Rio-2016 Olimpiya Oyunlarında 3 gümüş və 6 bürünc olmaqla, ümumilikdə 9 medal əldə ediblər. Mariya Stadnik və Xetaq Qazyumov ardıcıl üç Olimpiadada mükafatçı olan ilk idmançılar kimi ölkənin idman tarixinə imza atıblar.

Olimpiya Oyunlarında qazanılan medalların yarıdan çoxu (23 medal) məhz güləşçilərimizin payına düşür. Həm də olimpiadada qazanılan 7 qızıldan 4-ü məhz güləş idman növünün təmsilçilərinə aiddir.

*(ardı var)*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN
İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

# Bünövrəsi möhkəm olan gənclik millətin etibarlı gələcəyidir

***Azərbaycan gəncliyi vətəninə, millətinə və xalqına layiq şəkildə formalaşır. Dövlətimizin qayğısı sayəsində Azərbaycanın uşaq və gənclərinin fiziki və mənəvi cəhətdən formalaşması yüksələn templə inkişaf edir. Məhz bu məqsədlə respublikamızın bütün bölgələrində Olimpiya idman kompleksləri, idman klubları yaradılır. Ölkə idmanının inkişafında, perspektivli uşaq və gənclərin üzə çıxarılmasında bu cür idman ocaqlarının müstəsna rolu var.***

***Uşaq və gənclərin fiziki və mənəvi inkişafının əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulub. Yeni idman ocaqlarının inşa edilməsi, bəzilərinin isə əsaslı təmiri məhz ulu öndərin gənc nəslə göstərdiyi qayğını təcəssüm etdirir. Ümummilli liderimiz Azərbaycan balalarının sağlam, layiqli vətəndaş kimi formalaşmasına xüsusi qayğı ilə yanaşır, gənc nəslin idmana və bədən tərbiyəsinə cəlb edilməsi üçün mühüm işlər görürdü. Ulu öndərin istəyi, arzusu Azərbaycan gənclərinin sağlam həyat tərzi yaşaması, fiziki və mənəvi inkişafı idi. Xalqına, millətinə, vətəninə bağlı olan dahi şəxsiyyət xalqımızın gələcəyini sağlam görmək istəyirdi. Ümummilli liderin diqqəti və qayğısı Azərbaycanın uşaq və gənclərinin qarşısında "yaşıl işıq" yandırdı. Sağlam həyat tərzi keçirmək üçün idman ocaqlarına üz tutan uşaqların sayı ildən-ilə artdı. Bu gün Azərbaycan idmanında kütləvilik təmin edilib, uşaq və gənclər fiziki və mənəvi inkişaf yolunda mətin addımlarla irəliləyirlər.***

## Gənclər onlara bəxş edilən mirasdan səmərəli istifadə etməlidirlər

Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması əsas amillərdən biridir. Çünki vətənpərvər azərbaycanlı gənc öz həyatını qurarkən, hər şeydən əvvəl, müstəqil Azərbaycanın bugünü və gələcəyi haqqında düşünəcək, bütün ömrü boyu vətəndaşlıq hisslərinə malik olduğunu nümayiş etdirəcək. Ən azı ona görə ki, müstəqil Azərbaycan bu günün gənclərinə şəhidlərimizin əmanətidir. Bu gün böyük iftixarla demək olar ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi göz bəbəyi kimi qoruyub yaşadır. Bu məsələ ölkəmizdə öz müsbət həllini tapıb. Ulu öndərimiz Heydər Əliyevin sayəsində Azərbaycan müstəqillik qazanıb, demokratiyanın atributları tam bərpa edilib. Bütün bunlar Azərbaycan gəncliyinin rifahının təminatçısına çevrilib. Ulu öndərin ən böyük xidmətlərindən biri də gənclərlə bağlı məsələləri həmişə öz siyasətinin əsas tərkib hissələrindən biri hesab etməsi idi. O, gənc nəslin dövlətimizin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini vacib məsələlərdən biri elan etmişdi. Heydər Əliyev müasir düşüncəli, savadlı gənclərin yetişməsi üçün çalışırdı. Onun göstərdiyi qayğı sayəsində Azərbaycan gəncləri ölkəmizin hüdudlarından kənarda təhsil almış, savadlı kadrlar kimi ölkəmizin inkişafına öz töhfələrini vermişlər. Ümummilli lider gənclərimizin firavan həyat yoluna yaşıl işıq yandırıb.

Gənclər onlara bəxş edilən mirasdan səmərəli istifadə etməlidirlər. Ümumilikdə götürsək, gənclik bir millətin yaşaması və inkişafı üçün təməl daşıdır. Təməl daşı nə qədər möhkəm olarsa, onun üzərində qurulan gələcək də möhkəm olacaq. Bünövrəsi möhkəm olan gənclik isə millətinin adını tarixə yazır.

Gənclərə göstərilən diqqət və qayğının bariz nümunəsi olaraq ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1996-cı ildən başlayaraq Azərbaycan gənclərinin forumlarının təşkil edilməsini göstərmək yerinə düşərdi. Bu forumlarda Heydər Əliyev gənclərin fikirlərini öyrənir, onların problemləri ilə maraqlanır, Azərbaycanın gənc nəslinin sağlam, vətənə, millətə layiq vətəndaşlar kimi böyüməsi üçün əlindən gələni əsirgəmirdi. Azərbaycan gəncliyi məhz Heydər Əliyevin düşünülmüş şəkildə həyata keçirdiyi siyasət nəticəsində ölkəmizin aparıcı qüvvəsinə çevrilib. Bu forumlarda gənclərin qarşısında duran vəzifələr müəyyənləşdirilib, onların hərtərəfli inkişafı, problemlərinin həlli sahəsində tədbirlərin görülməsi əlaqədar təşkilatların qarşısında mühüm vəzifə kimi qoyulub.




1996-cı il fevralın 2-də keçirilən I Forumda ulu öndər Heydər Əliyev gənclərin qarşısında tarixi vəzifə qoyub: "Hər bir Azərbaycan gənci hər şeydən çox müstəqil Azərbaycanın bugünü, gələcəyi haqqında düşünməlidir". Ümummilli liderin gənclərə olan diqqət və qayğısı ölkə gənclərinin problemlərinin həllinə ciddi təkan verib, dövlət tərəfindən belə bir qayğı gənclərə ruhlandırıcı təsir bağışlayıb. Bu forumdan sonra gənclərlə aparılan iş nəzərəçarpacaq dərəcədə canlanıb. Bu gün Azərbaycanın gənc nəsli ölkəmizin siyasi-mədəni həyatında ön sıralarda addımlayır. Artıq "Gənclər Günü"nün təsis edilməsindən 21 il keçir. Arxada qalan bu müddət gənclərimizin ictimai-siyasi, habelə mədəni həyatında dönüş mərhələsi yaradıb. Fərəh hissi ilə qeyd etmək lazımdır ki, "Gənclər Günü" MDB məkanında və Şərqi Avropa ölkələri arasında, ilk dəfə olaraq, Azərbaycanda təsis edilib.

Sağlam ruhlu gənclərimizin yetişməsində idmanın da rolu kifayət qədərdir. Ümummilli liderin bu sahədə gördüyü işlər əvəzsizdir. Gənclərin forumunda çıxış edən Heydər Əliyev onların fiziki və mənəvi inkişafı üçün öz tövsiyələrini verib. O dövrlərdə hələ gənc olan dövlətimizin gəncləri üçün əlverişli şərait yaratmaq üçün imkanlar az idi. Buna baxmayaraq, gənclərimizin sağlam həyat tərzi sürməsi üçün Heydər Əliyev bir sıra mühüm addımlar atıb. Ölkəmizdə müasir tələblərə cavab verən Olimpiya kompleksləri, idman klubları yaradılıb. İdmana dövlət qayğısı daha da artıb, respublikamızın idman imici yüksəlib. Azərbaycan gəncliyi yaradılan şəraitdən lazımınca yararlanıb, idman sahəsində keçirilən bütün tədbirlər qısa zaman ərzində öz bəhrəsini verib. Azərbaycanda idman siyasətinin düzgün qurulduğunu bu sahədə qazanılmış uğurlu nəticələr təsdiqləyir. İnkişafda olan idman siyasəti gənclərimizin sağlam həyat tərzini təmin etməyə, dünyada Azərbaycanı idman ölkəsi kimi tanıtmağa xidmət edir. Çünki idmançılarımızın dünya arenalarında təşkil olunmuş yarışlardakı qalibiyyətləri dövlət himnimizin səslənməsinə, bayrağımızın ucaldılmasına zəmin yaradır. Bu gün bütün dünya ölkəmizdə idmanla bağlı gedən proseslərə çox böyük maraqla yanaşır və uğurlarımız qiymətləndirilir. Bizim sağlam, gənc idmançılarımızın sayəsində Azərbaycan artıq dünyada idman ölkəsi kimi tanınıb.

## Bölgələrdə minlərlə gənc idmanla məşğul olur

Azərbaycanda idman sahəsi inkişaf etdirildikcə gənclərin fiziki sağlamlığı daha da möhkəmlənir. Eyni zamanda, idmançılarımız tərəfindən beynəlxalq arenalarda əldə olunan medalların sayı da artır. Bunlar Azərbaycanda idmana, gənclərin fiziki sağlamlığına diqqətlə yanaşıldığının, dövlət qayğısının göstəricisidir. Xatırladaq ki, ölkəmizə bu medalları qazandıran idmançıların əksəriyyəti məhz gənclərdir. Gənclərin fiziki və mənəvi cəhətdən sağlam böyüməsi Azərbaycan dövlətini hər zaman düşündürən məsələdir. Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev idmanın inkişafı üçün bütün imkanlardan maksimum istifadə olunmasını tövsiyə edərək, xüsusi ilə uşaqların və gənclərin idmana cəlb olunmasını çox mühüm vəzifələrdən biri kimi dəyərləndirir. Ölkəmizdə uşaq, yeniyetmə və gənclərin fiziki inkişafının təminatı məhz idmanla, yaradılan şəraitlə əlaqəlidir. İndi Azərbaycanın hər bir bölgəsində müasir tələblərə cavab verən idman qurğuları fəaliyyət göstərir. Uşaqların və gənclərin idmana cəlb olunması kütləvi xarakter alıb. Minlərlə yeniyetmə və gənc hər gün müxtəlif idman növləri ilə məşğul olmaq üçün klublara və idman bölmələrinə üz tutur. Son illər bölgələrdə idman infrastrukturunun formalaşması uşaq, yeniyetmə və gənclərin sağlamlığının qorunmasına təkan verən ən böyük amildir.

Respublikamızın ikinci böyük şəhəri olan Gəncədə idmanın inkişafı, gənclərin fiziki sağlamlığının qorunması yüksək şəkildə həyata keçirilir. Qədim şəhərdə 260 idman qurğusu fəaliyyət göstərir. Bu qurğularda 15 min nəfərdən çox yeniyetmə və gənc idmanın müxtəlif növləri ilə məşğul olurlar. Onlardan 3 min 322 nəfəri qadınlar və qızlardır. Gəncədə bir Olimpiya İdman Kompleksi, 4 İdman Cəmiyyəti, 1 Fiziki Hazırlıq Uşaq-Gənclər İdman Klubu, 3 Uşaq-Gənclər İdman Məktəbi (UGİM), 1 İxtisaslaşdırılmış Olimpiya Ehtiyatı Uşaq-Gənclər Şahmat-Dama məktəbi (İOEUGŞDM) fəaliyyət göstərir.

Sakinlərin böyük əksəriyyətini gənclər təşkil etdiyi üçün "Gənclər şəhəri" adlandırılan Sumqayıtda da uşaq və gənclərin fiziki və mənəvi inkişafı üçün hər cür şərait yaradılıb. Ötən əsrin 60-cı illərin sonlarından başlayaraq, burada müxtəlif növlər üzrə bölmələr təşkil edilib. Hazırda şəhərdə mövcud olan idman cəmiyyətləri, məktəbləri, müstəqil idman klubları və təşkilatlarında tədris edilən idman növlərinin sayı 28-ə çatdırılıb. Bu növlər üzrə 12 min 412 uşaq və gəncin fiziki inkişafı təmin edilib. Şəhərin məhəllə və mikrorayonlarında 50-dən çox uşaq-idman şəhərciyi, 3 idman kompleksi, 9 süni örtüklü meydança tikilərək istifadəyə verilib.

Sumqayıtda ümumilikdə 315 idman qurğusu fəaliyyət göstərir. Şəhərdə uşaq və gənclərin ixtiyarında 14 kompleks idman qurğusu var ki, bu idman bazalarının 12-i dövlət vəsaiti hesabına inşa edilib.

2009-cu ildə istifadəyə verilən TERM idman kompleksində müasir tələblərə cavab verən üzgüçülük hovuzu, güləş zalı, süni örtüklü mini futbol meydançası var. Şəhərdəki 3 saylı Uşaq-Gənclər Şahmat-Dama İdman Məktəbi əsaslı təmir olunaraq istifadəyə verilib. İdman ocağının avdanlıqlarla təmin olunmuş dərs otaqları, kitabxana və kompyuter otağı, valideynlər üçün gözləmə otağı və tibb məntəqəsi zövqlə bəzədilib. 1 saylı Uşaq-Gənclər İdman Məktəbi də əsaslı təmir edilib. Məktəbin zirzəmisində iki atıcılıq tiri, iki ədəd 22x7 m ölçülü stolüstü tennis zalı, ibtidai hazırlıq qrupları üçün 12x7 ölçülü zal tikilib. Məktəbin ərazisində olan futbol meydançasına təbii ot örtüyü döşənib. Burada iki tennis kortu da inşa edilib. "Alüminumçu" idman evi və "İnşaatçı" stadionunda da təmir işləri aparılıb. 2011-ci ildə Sumqayıt Olimpiya İdman Kompleksi istifadəyə verilib. Kompleksdəki trenajor və ağırlıqqaldırma zallarında, həmçinin tir otağında gənclərin idmanın bu növləri ilə məşğul olmaları üçün ən müasir avadanlıq quraşdırılıb. Burada müxtəlif səviyyəli yarışların keçirilməsinə imkan verən müasir üzgüçülük zalı da inşa edilib. İdman ocağında ağırlıqqaldırma, hovuz və digər idman zallarının hər biri üçün soyunub-geyinmə, duş, sauna kabinəsi, masaj otaqları və digər texniki otaqlar yaradılıb. İdman qurğusunun ərazisində uzunluğu 65, eni 40 metr olan süni örtüklü futbol meydançası yaradılıb. Burada, həmçinin uzunluğu 110 metr olan qaçış zolağı, açıq basketbol, voleybol, tennis meydançaları inşa edilib.

Naxçıvan Muxtar Respublikasında da gənc nəslin fizki və mənəvi inkişafı üçün lazımi tədbirlər həyata keçirilir. Muxtar Respublikada gənclərin fiziki cəhətdən sağlamlığının təmin edilməsi məqsədi ilə bir sıra idman qurğuları inşa olunub. Burada İlham Əliyev adına Naxçıvan Olimpiya İdman Kompleksi, Üzgüçülük Mərkəzi, ən müasir tələblərə cavab verən Şahmat Mərkəzi, Şərur Olimpiya İdman Kompleksi fəaliyyət göstərir. Qeyd etdiyimiz bu idman qurğularında uşaqların fiziki sağlamlığı üçün hər cür şərait mövcuddur. 2013-cü il dekabrın 7-də istifadəyə verilən Naxçıvan Atıcılıq Mərkəzində iki stend və sportinq meydançası, oxatma və tir sahələri, peyntbol meydançası, hərbi-idman oyunlarının keçirilməsi üçün ərazi var. Atıcılıq Mərkəzinin ərazisində oxatma idman növü ilə də məşğul olmaq üçün hədəflər quraşdırılıb. Burada 10 və 25 metrlik məsafələr üzrə tirlər hazırlanıb. Atıcılıq Mərkəzində 400-dən artıq naxçıvanlı gənc idmanla məşğul olur.

## Əxlaqi keyfiyyətlər cəmiyyətin mənəvi zənginliyinə zəmin yaradır

Şübhəsiz ki, fiziki sağlamlıq mənəvi sağlamlıqla vəhdət təşkil edir. İdman və bədən tərbiyəsi ilə məşğul olmaq mənəvi saflığa sahib olmaq, vətənpərvər ruhda böyümək, milli dəyərlərimizə söykənmək deməkdir. Uşaq və gənclərin mənəvi saflığı, əxlaqi keyfiyyətlərə malik olması ümumilikdə cəmiyyətin mənəvi zənginliyinə zəmin yaradır. Çünki cəmiyyətin əsas hissəsini gənclər təşkil edir. Azərbaycanın gənc nəslinin vətəndaşlıq borcu milli-mənəvi dəyərlərimizə, doğma dilimizə hörmətlə yanaşmaq, doğma torpağımızı qorumaq, zəngin tariximizi dərindən öyrənməkdən ibarətdir. Gənclərimizin vəzifəsi isə dövlət müstəqilliyimizi qorumaq və gələcək nəsillərə qüdrətli, iqtisadi cəhətdən güclü dövlət təhvil verməkdir. Eyni zamanda hər bir gənc düşünməlidir ki, mənsub olduğu millətin, müstəqil dövlətin dünya birliyində əbədi yaşaması üçün onun əsas vəzifəsi orduda xidmət etməkdir. Xalqımız milli-mənəvi ənənələri, mili-mədəni dəyərləri əsrlər boyu özünəməxsus şəkildə yaşadıb. Biz fəxr edə bilərik ki, milli, dini, mənəvi dəyərlərimiz hər zaman ən yüksək mənəviyyatı əks etdirib.



Müstəqil Azərbaycan azad, sərbəst dünyaya açıq ölkədir. Bundan səmərəli istifadə etmək lazımdır. Ölkəmizi, xalqımızı dünyaya olduğu kimi göstərmək, xalqımıza məxsus olan mənəvi dəyərləri dünyada təbliğ etmək hər birimizin borcudur. Dünya dəyərlərindən səmərəli istifadə etmək, onları öz mənəvi dəyərlərimizlə birləşdirmək və xalqımızın mənəviyyatını zənginləşdirmək çox önəmli məsələdir. Sevindirici haldır ki, Azərbaycanda milli dəyərlərimizin ümumbəşəri dəyərlərlə sintezini yaradan, mənəvi cəhətdən kamil insan kimi böyüyən gənc nəsil formalaşıb. Bu, Azərbaycanın gənc nəslinin qabiliyyətinin, bacarığının, zəkasının, intellektual səviyyəsinin, vətənpərvərliyinin göstəricisidir.

## Müasir Azərbaycan gəncliyi zirvələrə doğru irəliləyir

Azərbaycanın müstəqillik dövrü ölkənin hərtərəfli inkişafı ilə yanaşı, həm də dövlət gənclər siyasətinin formalaşması və güclənməsi ilə xarakterizə edilir. Bu gün gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. Ölkəmizdə daim gənclərin cəmiyyətdəki aktiv mövqeyinin gücləndirilməsi, imkanlarının artırılması, onların təhsilinə, mənəvi tərbiyəsinə, fiziki inkişafına, hüquqlarının qorunmasına xüsusi diqqət və qayğı göstərilir. Bu isə mübariz, vətənpərvər, sağlam düşüncəli nəslin yetişdirilməsinə zəmin yaradır. Düzgün aparılan dövlət gənclər siyasətinin nəticəsidir ki, gənclərlə bağlı məsələlər çevik həllini tapır, onların potensialı yüksək qiymətləndirilir, qarşıya çıxan çətinliklərin həllinə daim diqqət yönəldilir.

"Gənclər Evi" müəssisəsinin inkişafı istiqamətində görülmüş mühüm işlər belə nümunələrdən biridir. Bu sahədə aparılmış geniş araşdırmalar, keçirilmiş sorğular "Gənclər Evi" müəssisəsinin inkişaf konsepsiya layihəsinin hazırlanmasını zəruri etmişdir. Layihə qabaqcıl ölkələrin təcrübəsi öyrənilməklə gənclər siyasətinin tənzimlənməsi və inkişafını əhatə edir. Gənclərin bütün təbəqələrinin, xüsusilə də bölgələrdə yaşayan gənclərin böyük əksəriyyətinin cəmiyyətin ictimai-siyasi prosesində fəal iştirakının təmin edilməsi məqsədilə gənclər evlərinin inşası sürətləndirilib. Bu istiqamətdə artıq bir sıra nəticələr əldə edilmişdir. Vacib olan həmin müəssisələrin daima inkişaf etməsi, günün tələblərinə, xüsusilə də gənclərin ehtiyaclarına cavab verən fəaliyyətin təşkili diqqət mərkəzindədir. Məhz bu səbəb "Gənclər Evi" müəssisələrinin İnkişaf Konsepsiyasının yaranmasını şərtləndirən mühüm amillərdən biridir. Bu konsepsiya layihəsi "Gənclər Evi" fəaliyyətinin əsasını təşkil edən könüllülük hərəkatı, sağlam həyat tərzi, vətənpərvərliyin formalaşdırılması, asudə vaxtın təşkili, milli-mənəvi dəyərlərin aşılanması, kiçik və orta sahibkarlığın inkişafı prossesində gənclərin rolunun artırılmasına xidmət edir. Həmçinin konsepsiyada gənclərin layihələrinin və proqramlarının inkişafı üzrə təkliflər öz əksini tapıb, müəyyən olunmuş aktual məsələləri aradan qaldıra biləcək metodologiya ortaya qoyulub.

Bu gün gənclərə lazımi diqqət göstərmək, onların nailiyyətlərini təbliğ etmək, cəmiyyətin bütün sahələrində gənclərin iştirakına təkan vermək dünyanın hər bir yerində olduğu kimi, Azərbaycanda da həm müstəqilliyin qorunması, həm də demokratik quruculuq işlərinin təməlidir. Gənclərin inkişafından danışarkən dövlət gənclər siyasətinin təhsil sahəsindəki uğurlarına toxunmamaq mümkün deyil. Son 10 il ərzində bu istiqamətdə aparılan islahatlar potensiallı gəncliyin inkişafını sürətləndirir. Hər bir perspektivli Azərbaycan gəncinin yetişməsinə ölkəmizdə dövlət tərəfindən lazımi şərait yaradılmışdır. Nəzərə alsaq ki, Azərbaycan yeni inkişafa keçid dövründədir, ölkənin yüksək ixtisaslı kadrlara olan ehtiyacını təmin etmək məqsədilə gənclərin xaricdə təhsil almalarına göstərilən dövlət dəstəyi bu sahədə atılan ən mühüm addımlardan biridir. Eyni zamanda belə gənclərimiz xarici ölkələrdə Azərbaycan xalqının təmsilçisi, onun qədim mədəniyyətinin, adət-ənənələrinin, Qarabağ həqiqətlərinin təbliğatçılarıdırlar.

***Azər Əlizadə***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*



# Komandamız dünya kuboku yarışlarının qalibi oldu

Atçılıq Federasiyasının (ARAF) və Beynəlxalq Polo Federasiyasının (BPF) birgə təşkilatçılığı ilə Binə Atçılıq Mərkəzində təşkil edilən arena polo üzrə dünya kuboku yarışlarına yekun vurulub. Üç gün davam edən yarışda dörd güclü beynəlxalq peşəkar polo komandası - Azərbaycanın “Elite Horse and Polo Klub”, ABŞ-ın “Qrand Çampions Polo Klub”, İsveçrənin “Evviva Polo Klub St.Moritz” və Monakonun “Monte-Karlo Polo Team” mübarizə aparıb.

Azərbaycanın “Elite Horse and Polo Klub” komandası turnirin final mərhələsində İsveçrənin “Evviva Polo Klub St.Moritz” klubu ilə qarşılaşıb. Komandamız 11,5:5 xal hesabı ilə qalib gələrək yarışın qalibi olub. Bu mötəbər yarışda komandamızın heyətində Elçin Camallı, Rəşad Həsənov, Əli Rzayev, Amil Namazov, Tərlan Qurbanəliyev, komandanın baş məşqçisi və oyunçusu Andres Laplasette çıxış ediblər. Azərbaycan təmsilçisinin kapitanı Elçin Camallı turnirin ən yaxşı oyunçusu seçilib.

Üçüncü yer uğrunda gərgin idman mübarizəsi şəraitində keçən görüşdə ABŞ-ın “Qrand Champions Polo Klub” komandasının poloçuları Monakonun “Monte-Karlo Polo Team” kollektivi üzərində 6,5:3 xal hesabı ilə qələbə qazanıblar.

Yarışı beynəlxalq dərəcələri hakimlər idarə ediblər.

Yarışlardan sonra qaliblərin mükafatlandırılması mərasimi keçirilib. Komandalara mükafatlar və kubok təqdim olunub. Komandaların üzvlərinə medalları və kuboku ARAF-ın prezidenti Elçin Quliyev və digər şəxslər təqdim ediblər.

# Boksçumuz beynəlxalq turnirdə bürünc medal qazanıb

Sentyabrın 6-9-da Polşada qadın boksçular arasında beynəlxalq turnir keçirilib. XII dəfə təşkil olunan ənənəvi yarışda Azərbaycan millisi də iştirak edib. 19 ölkənin mübarizə apardığı turnirdə yığmamız 2 boksçu ilə təmsil olunub. Elbrus Rzayevin yetirmələrindən Anna Əlimərdanova çıxışını bürünc medalla başa vurub. 54 kq çəki dərəcəsində rinqə çıxan təmsilçimiz Çloe Tomas (Uels) və Dina Jolomana (Qazaxıstan) qalib gələrək, yarımfinala vəsiqə qazanıb. Boksçumuz bu mərhələdə Çin Taypeyindən olan Yu-Tinq Linlə üz-üzə gəlib. Gərgin keçən döyüş rəqibin qələbəsi ilə başa çatıb. Nəticədə Anna Əlimərdanova turniri 3-cü yerdə bitirib.



Digər boksçumuz Yana Alekseyevna (60 kq) isə 1/8 finalda Mira Potkonenə (Finlandiya) məğlub olaraq mübarizəni dayandırıb.

# Yelkənli İdman Federasiyasının kubokunun qalibləri mükafatlandırılıblar

Sentyabrın 9-da Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasında Azərbaycan Yelkənli İdman Federasiyasının (AYİF) keçirdiyi yelkənli idmanın “Optimist” və “Lazer” sinfi üzrə Federasiya Kuboku qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

AYİF-in xətti ilə Azərbaycanda fəaliyyətə başlayan beynəlxalq mütəxəssis Burcu Algon Giorgianni tədbirdə çıxış edərək bildirib ki, 2015-ci ildən başlayaraq Azərbaycanda yelkənli idmana marağın artırılması və idmançıların sayının çoxaldılması məqsədilə Yelkənli İdman Federasiyası tərəfindən səmərəli işlər həyata keçirilir. Görülmüş tədbirlər nəticəsində ölkəmizdə “lazer” və “optimist” sinifli qayıqlar üzrə yerli idmançılardan ibarət yığma komandalar formalaşıb. Qısa müddət ərzində beynəlxalq standartlara uyğun qayıqların alınması, müvafiq infrastrukturun yaradılması yerli və beynəlxalq səviyyəli yarışlarda idmançıların hazırlanması təmin edilib.

Sonra tədbirdə 15 gənc yelkənçiyə sertifikatlar təqdim edilib.

Qeyd edək ki, sentyabrın 8-9-da AYİF tərəfindən hər il təşkil edilən Yelkənli İdman Federasiyasının kuboku uğrunda yarış keçirilib. İkigünlük yarışda idmançılar 10 saata yaxın açıq dənizdə güclərini sınayıblar. Tədbir çərçivəsində “Optimist” sinfi üzrə Federasiya Kuboku birinci yerə layiq görülmüş Murad Ağaverdiyə, yarışda ikinci və üçüncü yerin sahibləri olmuş Murad Hacızadəyə və İsmayıl Kərimova təqdim olunub. “Lazer” sinfində isə Federasiya Kuboku ilə yarışda yüksək nəticə göstərmiş Omar Hatim, ikinci və üçüncü yerin sahibləri Rafiq Orucov və Emin Vəlizadə təltif olunublar.

## Qurban Qurbanov:

## ““Stemford Bric”dəki qarşılaşma çox ağır keçəcək”




“Avropanın ən mötəbər klub turnirində oynamaq komandamızın çoxdankı arzusu idi”. Bu sözləri “Qarabağ”ın baş məşqçisi Qurban Qurbanov deyib.

Ağdam klubu Çempionlar Liqasının qrup mərhələsində ilk oyununu sabah “Çelsi”yə qarşı keçirəcək. Matçdan əvvəl AFP nəşrinə açıqlama verən 45 yaşlı baş məşqçi maraqlı fikirlər səsləndirib: “Püşk İngiltərə, İspaniya və İtaliyanın ən yaxşı klublarını bizə rəqib etdi. Qrupda böyük rəqabət olacaq. Rəqiblərimiz çox güclü və təcrübəli komandalardır. Amma bu o demək deyil ki, biz “döyüş”dən əvvəl təslim olacağıq. Hər bir oyunda dişimizlə, dırnağımızla sona qədər mübarizə aparmağa hazırıq”.

Qurban Qurbanov “Çelsi” ilə Londonda keçiriləcəkləri oyuna da toxunub. O, rəqibin güclü olduğunu etiraf etsə də, layiqli nəticəyə imza atmağa çalışacaqlarını vurğulayıb. “Mübarizəyə Londonda start verəcəyik. Bizi “Çelsi” ilə vacib oyun gözləyir. “Stemford Bric”dəki qarşılaşma çox ağır keçəcək. Buna baxmayaraq, layiqli nəticəyə imza atmağa çalışacağıq”, - deyə o, əlavə edib.

Qeyd edək ki, “Çelsi” - “Qarabağ” matçı Bakı vaxtı ilə 22:45-də start götürəcək.

# “Qarabağ” bu gün Çempionlar Liqasının qrup mərhələsində debüt edəcək

Bu gün UEFA Çempionlar Liqasında (ÇL) qrup mərhələsinin oyunlarına start veriləcək. Azərbaycan çempionu “Qarabağ” klubu ölkə futbolu tarixində ilk dəfə ÇL-in əsas mərhələ matçına çıxacaq. Bunadək qitənin ən nüfuzlu klub turnirinin yalnız təsnifat mərhələlərində təmsil olunan Azərbaycanın qrupdakı debütü Londonda gerçəkləşəcək. C qrupunda mübarizə aparan “Qarabağ” I turda “Çelsi” klubu ilə münasibətlərinə aydınlıq gətirəcək. Görüş Londonun məşhur “Stemford Bric” stadionunda təşkil olunacaq.

Debütlə əlamətdar olan tarixi matça rəqiblər fərqli durumda gəlib. Topaz Premyer Liqasında IV turun “Səbail”lə görüşü təxirə salınan “Qarabağ” “Qəbələ” ilə matçdan 17 gün sonra meydana çıxacaq. Milli komandaların oyunları ilə əlaqədar fasilədən öncə son görüşünü keçirən ağdamlılar hazırlığını məhz bu matça uyğun qurub.

London klubu isə “Qarabağ” öncəsi “Lester”lə səfər matçında qələbə əldə edib. Ardıcıl 3-cü dəfə qalib gələn Antonio Kontenin yetirmələri Çempionlar Liqasına yüksək əhval-ruhiyyədə çıxacaq. Ümumiyyətlə isə, hər iki komanda öz ölkəsinin çempionatında ardıcıl 3 dəfə qalib gəlib.

Yeri gəlmişkən, İngiltərə mətbuatı Londonda keçiriləcək matçın təxmini start heyətlərini açıqlayıb. “Zadəganlar”ın bir ildən sonra yenidən qitənin ən nüfuzlu klub turnirində iştirak etməsi haqqında geniş yazı hazırlayan “Evening Standart” və “Sunday Express” nəşrləri “Qarabağ”ın 4-cü cəhdində qrup mərhələsində oynaya bildiyini də vurğulayıblar.

Matçın ehtimal olunan heyətləri ilə bağlı isə ingilis həmkarlarımız “Çelsi”nin sürpriz bir komanda ilə oynayacağını düşünürlər. Yeni transferlərin start heyətində meydana çıxmasını yüksək dəyərləndirən ingilislər zədədən dönən Eden Azarın da ilk dəqiqələrdən meydanda olacağını düşünürlər. Beləliklə, İngiltərə mediasının fikrincə, “Çelsi” “Qarabağ”a qarşı aşağıdakı heyətlə oynayacaq: Villi Kabalero, Antonio Rüdiger, Qari Keyhill, Andreas Kristiansen, Devid Zappakosta, Markos Alonso, Nqolo Kante, Danni Drinkvoter, Villian, Eden Azar, Miki Batşuay.



**UEFA Çempionlar Liqası**

**C qrupu**

**“Çelsi” (İngiltərə) - “Qarabağ” (Azərbaycan)**

**Hakimlər:** Anastasios Sidiropulos, Polixronis Kostaras, Lazaros Dimitriadis, Damianos Eftimiadis (hamısı Yunanıstan).

*12 sentyabr. London. “Stemford Bric” stadionu. Saat 22:45.*

Bu, Qurban Qurbanovun yetirmələrinin Londona ikinci səfəridir. İki il əvvəl UEFA Avropa Liqasının qrupunda ağdamlılar “Tottenhem”lə üz-üzə gəlib. Azərbaycan və İngiltərə klublarının hələlik yeganə qarşılaşmasının hər iki səhnəsində britaniyalılar qalib gəlib. “Qarabağ” Londonda 1:3, Bakıda 0:1 hesabı ilə uduzub.

## Namizəd şəhərlərin siyahısını açıqlanıb

ABŞ, Kanada və Meksikanın Birləşmiş Təşkilat Komitəsi 2026-cı ildə təşkil olunacaq futbol üzrə dünya çempionatına ev sahibliyi etmək üçün namizəd şəhərlərin siyahısını açıqlayıb. İlk dəfə 48 yığma komandanın iştirakı ilə keçiriləcək dünya çempionatı üçün Birləşmiş Təşkilat Komitəsi 3 namizəd şəhəri - Kalqari, Qrin-Bey və San-Dieqonu siyahıdan çıxarıb. Beləliklə, Birləşmiş Təşkilat Komitəsinin ilkin sifariş ərizəsində 41 şəhər yer alır. Bunlardan 32-si ABŞ, 6-sı Kanada və 3-ü isə Meksika şəhəridir.

20-25 şəhərdən ibarət rəsmi sifariş ərizəsi gələn il martın 16-da FIFA-ya göndəriləcək. Dünya çempionatı zamanı oyunların 12 şəhərdə keçirilməsinə icazə verilir.

Qeyd edək ki, bir müddət əvvəl Mərakeş də dünya çempionatına ev sahibliyi etmək namizədliyini irəli sürəcəyini elan etmişdi.

## Millimiz Moldovaya yollanıb

Ağırlıqqaldırma üzrə qadınlardan ibarət yığma komandamız Moldovaya yollanıb. Komandamız bu ölkədə təlim-məşq toplanışında iştirak edəcək. Atletlərimiz Natalya Prişepa və onun köməkçisi Tərənə Abbasovanın rəhbərliyi altında hazırlıq keçəcək, qarşıdakı beynəlxalq yarışlara optimal formada çıxmağa çalışacaqlar.

Yığmamız Kişinyov şəhərinin yaxınlığındakı İvança qəsəbəsində inşa edilən AAAF Park İdman və Yaşayış Kompleksindəki təlim-məşq bazasında məskunlaşacaq.

Təlim-məşq toplanış oktyabrın 1-dək davam edəcək.

## Ronaldo CR7 ətrini təqdim edib

“Real”ın və Portuqaliya futbol yığmasının hücumçusu Kriştianu Ronaldo yeni ətir təqdim edib. CR7 ətrinin təqdimatı Madriddə keçirilib. Ətriyyatçılar CR7-ni Ronaldonun üstünlük verdiyi əsasda hazırlayıblar. CR7 kişi, qadın və uşaqların gündəlik istifadəsi üçün nəzərdə tutulur.

“Yaxşı ətir məndə özünəinam yaradır”, - deyə portuqaliyalı bildirib. Hücumçu, həmçinin qeyd edib ki, onun həmişə darçın ətrindən xoşu gəlib.



Sentyabrın 9-da qadın həndbolçulardan ibarət “Nur” və “Qarabağ” klubları növbəti yoldaşlıq oyununda qüvvələrini sınayıblar.

Mingəçevirdəki “Kür” Olimpiya Tədris-İdman Mərkəzində keçirilən ikinci yoxlama görüşündə də “Nur” komandası qalib gəlib. Mingəçevir təmsilçisi rəqibini 24:22 hesabı ilə məğlub edib.

# Mingəçevir təmsilçisi növbəti görüşdə də uduzmayıb

Xatırladaq ki, bu komandalar arasında keçirilən ilk yoxlama oyunu da “Nur”un 33:26 hesablı qələbəsi ilə başa çatmışdı.

## Karateçimiz Premyer Liqa turnirinin qalibi olub

Almaniyanın Leypsiq şəhərində karate üzrə Premyer Liqa turniri keçirilib. Yarışda 87 ölkədən 1384 idmançı mübarizə aparıb.

Dünya Karate Federasiyasının (WKF) karate üzrə birinci kateqoriyalı nüfuzlu yarışında milli komandamızın liderlərindən olan Ayxan Mamayev (84 kq) də qüvvəsini sınayıb. İdmançımız turnirdə yeddi görüş keçirib. Ayxan Mamayev Koreya Respublikasının təmsilçisi Min Soo (2:0), meksikalı Limon Canedo (5:0), yunanıstanlı Georgios Çanos (4:3), taypeyli Vu Çun-Vey (4:0) rusiyalı İlya Qranovesov (2:1) və macarıstanlı Valeri Çobatarla (2:2, yarımfinal) görüşlərini qələbə ilə başa vuraraq finala vəsiqə qazanıb. Həlledici qarşılaşma Ayxan Mamayevin Azərbaycan əsilli rusiyalı idmançı Aleksandr Əliyev üzərində 6:0 hesablı tam qələbəsi ilə yekunlaşıb.

Ayxan Mamayevin mövsümün son Premyer Liqa turnirində qızıl medal qazanması onun dünya reytinq cədvəlinin ikinci pilləsindəki mövqeyini daha da möhkəmləndirib.

Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
H/H AZ79IBAZ38090019449333849204
M/H 0137010002944
KOD 805250
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı və cümə günləri 6150 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-90-54; 564-74-19